Bakı Arbitraj Mərkəzinin Etik Davranış Qaydaları Mərkəzin İdarə Heyətinin Ümumi Yığıncağının 25 oktyabr 2025-ci il tarixli, 001/2025 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

"BAKI ARBİTRAJ MƏRKƏZİ"
QEYRİ-KOMMERSİYA HÜQUQİ ŞƏXSİ
ETİK DAVRANIŞ QAYDALARI

MÜNDƏRICAT

1. Ümumi müddəalar 3

2. Qısaltmalar və anlayışlar 3

3. Etik Davranış Qaydalarının məqsədi 3

4. Etik Davranış Qaydalarının tətbiq sahəsi 4

5. Təşkilatın dəyər və prinsipləri 4

5.1. Qanunilik 4

5.2. Peşəkarlıq 4

5.3. Neytrallıq və müstəqillik 4

5.4. Dürüstlük 4

5.5. Şəffaflıq 5

5.6. Konfidensiallığın qorunması 5

5.7. İnklüziv iş mühiti və ayrı-seçkiliyin qadağan edilməsi 5

5.8. Davranış və etika 5

6. Anti-korrupsiya 6

7. Maraqların toqquşması 6

8. Kodeksin pozulmasının nəticələri və məsuliyyət 6

9. Qaydalara dəyişikliyin edilməsi proseduru 6

1. Ümumi müddəalar

"Bakı Arbitraj Mərkəzi" qeyri-kommersiya hüquqi şəxsi (bundan sonra "**Təşkilat**") "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq 28 dekabr 2024-cü il tarixində dövlət qeydiyyatına alınmışdır. Təşkilat öz fəaliyyətini "Arbitraj haqqında" Qanun, "Daimi arbitraj təşkilatının akkreditasiyası və akkreditasiyasının ləğvi Qaydası", qüvvədə olan digər normativ aktlar və Təşkilatın nizamnaməsinə uyğun olaraq həyata keçirir.

Təşkilatın fəaliyyət predmeti və məqsədi, mübahisənin həlli üçün məhkəmənin səlahiyyətinə aid məsələlər istisna olmaqla, arbitraj icraatının idarə olunması, arbitrajın təşkilati təminatı, o cümlədən arbitrlərin təyin edilməsi, onlara etiraz olunması və onların səlahiyyətlərinə (mandatına) xitam verilməsi məsələlərinin həllindən, həmçinin kargüzarlığın aparılması, arbitraj haqlarının və digər arbitraj xərclərinin ödənilməsinin təşkilindən ibarətdir.

2. Qısaltmalar və anlayışlar

2.1. **İşçi -** Təşkilatda əmək müqaviləsi və ya mülki-hüquqi xarakterli müqavilə (xidmət, tapşırıq, podrat və s.) əsasında fəaliyyət göstərən fiziki şəxs; habelə belə şəxslərin adından və ya tapşırığı ilə fəaliyyət göstərən nümayəndələr, köməkçilər və ya subpodratçılar; eləcə də işin yerinə yetirilməsinə birbaşa və ya dolayı yolla cəlb olunmuş, Təşkilatla əməkdaşlıq edən digər fiziki, hüquqi şəxslər və onların işçiləri və digər nümayəndələri.

2.2. **Təşkilat -** "Bakı Arbitraj Mərkəzi" qeyri-kommersiya hüquqi şəxsi

2.3. **Qaydalar -** Bakı Arbitraj Mərkəzinin Etik Davranış Qaydaları

2.4. **Tətbiq edilən qanunvericilik-** Azərbaycan Respublikasının qanunvericiliyi, eləcə də tərəfdar çıxdığı beynəlxalq müqavilələr və Təşkilatın Nizamnaməsi.

3. Etik Davranış Qaydalarının məqsədi

Qaydalar Təşkilatın məqsədlərinə çatmaq üçün zəruri olan əsas norma və qaydaları müəyyən edir. Etik davranış qaydaları, təşkilatın nüfuzunun artırılması, üçüncü şəxslərlə münasibətdə fəaliyyətində səmərəliliyin və şəffaflığın artırılması, maraqların toqquşmasının qarşısının alınması, işçilər tərəfindən etik davranış qaydalarına əməl olunmasının və onların fəaliyyətinin qiymətləndirilməsinin təmin edilməsi məqsədi ilə hazırlanmışdır. Həmçinin Qaydalar təşkilatın işçilərindən olan gözləntini özündə əks etdirir.

4. Etik Davranış Qaydalarının tətbiq sahəsi

Təşkilatın bütün işçiləri və rəhbərlik üzvləri, tutduqları vəzifədən və əmək münasibətlərinin müddətindən asılı olmayaraq, vəzifə öhdəliklərini yerinə yetirərkən və Təşkilatın adından fəaliyyət göstərərkən, Qaydalar ilə müəyyən edilmiş etik normalara və dəyərlərə riayət etməyə borcludurlar. Qaydalar həm fiziki həm də onlayn şəkildə aparılan fəaliyyətlərə tətbiq edilir. Odur ki, Qaydaların pozulması fiziki iş yerindən kənarda da baş verə bilər.

5. Təşkilatın dəyər və prinsipləri

Təşkilatın bütün əməkdaşları təşkilatın dəyər və prinsiplərini qəbul etməli və onlara əməl etməlidir. Təşkilatın əsas dəyərləri aşağıdakılardır:

5.1. Qanunilik

İşçilər:

5.6.1. Tətbiq edilən qanunvericiliyin bütün tələblərinə riayət etməli;

5.6.1. Gündəlik və peşəkar fəaliyyətləri zamanı qanunsuz hərəkətlərə, eləcə də qanuniliyi şübhə doğura bilən hərəkətlərə yol verməməlidir.

5.2. Peşəkarlıq

İşçilər vəzifə funksiyalarını müəyyən olunmuş müddət ərzində, zəruri peşəkarlıq və səriştə nümayiş etdirməklə icra etməyə borcludurlar. Həmçinin onlar iş yoldaşları ilə səmərəli bilik və təcrübə mübadiləsini həyata keçirməli, habelə işgüzar münasibətlərin yüksək səviyyədə saxlanılmasını təmin etməli, iş yoldaşları, rəhbərlik, tərəfdaşlar, qarşı-tərəflərin nümayəndələri və digər şəxslərlə ünsiyyət zamanı onlara yoxlanılmamış və ya səhv məlumat verməməlidirlər.

5.3. Neytrallıq və müstəqillik

İşçilər müstəqillik və neytrallıq prinsiplərinə daim riayət etməlidirlər. Onlar heç bir tərəfin və ya faktorun təsiri altında olmadan, şəxsi maraqlardan uzaq şəkildə vəzifə funksiyalarını icra etməlidirlər. İşçilər onların müstəqilliyinə və neytrallığına xələl gətirə biləcək bütün hərəkətlərdən çəkinməlidirlər. İşçilər hər hansı bir neytrallığa və müstəqilliyə şübhə yaradacaq vəziyyətlərdə dərhal rəhbərliyə məlumat verməlidir.

5.4. Dürüstlük

İşçiləri fəaliyyətlərində dürüstlük prinsipinə sadiq qalmalıdırlar. Onlar fəaliyyətlərində vicdanlı davranmalı, faktların təhrifindən, eləcə də yalan bəyanatlardan yayınmalıdırlar.

Əlavə olaraq, işçilərin verdikləri qərarlar etik və hüquqi baxımdan əsaslandırılmış olmalı və Təşkilatın nüfuzunun qorunmasına yönəlməlidir.

5.5. Şəffaflıq

İşçilər qərar qəbuletmə prosesində və fəaliyyətlərinin bütün mərhələlərində şəffaflıq nümayiş etdirməli, tələb edildiyi hallarda müvafiq hesabatlılığı təmin etməlidirlər. Məlumatların gizlədilməsi və ya ictimaiyyətin və maraqlı tərəflərin yanlış yönləndirilməsi halları yolverilməzdir.

5.6. Konfidensiallığın qorunması

5.6.1. Konfidensial məlumatlar dedikdə bunlarla məhdudlaşmamaqla aşağıdakılar nəzərdə tutulur:

5.6.1.1. Arbitraj prosesinə dair məlumatlar: tərəflərin kimliyi, təqdim etdikləri sənədlər, sübutlar, ekspert rəyləri, məhkəmə və arbitraj qərarları (əgər onlar ictimaiyyətə açıq deyilsə), barışıq və digər razılaşmalar və işlə bağlı digər məlumatlar;

5.6.1.2. Təşkilatın daxili fəaliyyəti: idarəetmə strukturu, daxili qərar və strategiyalar, işçilərin şəxsi məlumatları, əmək müqavilələrinin şərtləri, maliyyə göstəriciləri və daxili təlimatlar;

5.6.1.3. Arbitr və tərəflərlə bağlı məlumatlar: təyinatla əlaqəli, şəxsi və peşəkar məlumatlar, kommersiya sirləri;

5.6.1.4. Tərəfdaşlıq və əməkdaşlıq razılaşmaları: digər yerli və beynəlxalq qurumlarla imzalanmış sənədlər, birgə layihələr və onların şərtləri və s.

5.6.2. İşçilər ona etibar edilən və ya fəaliyyət zamanı əldə etdiyi konfidensial məlumatların məxfiliyini qorumalı, həmin məlumatları yalnız zəruri hallarda paylaşmalıdır. Konfidensial məlumatların icazəsiz açıqlanması və ya şəxsi məqsədlərlə istifadəsi qadağandır.

5.7. İnklüziv iş mühiti və ayrı-seçkiliyin qadağan edilməsi

Təşkilat inklüziv və hörmətə əsaslanan iş mühitini qoruyur. İşçilərin cinsi, irqi, dini, etnik mənsubiyyəti, yaşı, sağlamlıq vəziyyəti, sosial statusu və ya digər fərqlərinə görə ayrı-seçkilik yolverilməzdir. Hər kəs bərabər imkanlara malik olmalı və əməkdaşlığa əsaslanan mühitdə çalışmalıdır. Zorakılıq, təzyiq, təhqir və ya hər hansı bir diskriminativ davranış yolverilməzdir.

5.8. Davranış və etika

İşçilər etik davranış qaydalarına riayət etməli, Təşkilatın nüfuzuna xələl gətirə biləcək hərəkətlərdən çəkinməlidirlər. İşçilər həmkarları, tərəflər və digər şəxslərlə münasibətdə hörmətli və nəzakətli davranmalıdır.

6. Anti-korrupsiya

Təşkilat korrupsiyaya qarşı sıfır tolerantlıq prinsipinə əməl edir. İşçilər rüşvət, qeyri-qanuni ödənişlər və ya hər hansı formada qeyri-qanuni maddi və ya qeyri-maddi fayda qəbul etməməli və təklif etməməlidirlər. Həmçinin işçilər korrupsiya ilə mübarizə sahəsində müəyyən edilmiş daxili qanunvericilik və beynəlxalq standartlara riayət edilməlidir.

7. Maraqların toqquşması

Hər bir işçi maraqların toqquşması hallarının yaranmamasında məsuliyyət daşıyır. Şəxsi, ailəvi, maliyyə və ya digər maraqların Təşkilatın maraqları ilə ziddiyyət təşkil etdiyi hallarda işçi bu barədə dərhal rəhbərliyə məlumat verməli və müvafiq tədbirlərin görülməsini təmin etməlidir. Hər hansı bir vəziyyətin maraqların toqquşmasına səbəb ola biləcəyi şübhəsi olduqda belə məsələ şəffaf şəkildə açıqlanmalıdır.

8. Etik Davranış Qaydalarının pozulmasının nəticələri və məsuliyyət

Etik Davranış Qaydalarının pozulması işçilər üçün intizam məsuliyyəti doğura bilər. Pozuntu halında, məsələ araşdırılır və nəticəsinə uyğun olaraq xəbərdarlıq, töhmət, vəzifədən azad olunma və ya digər hüquqi tədbirlər tətbiq edilə bilər. Qanun pozuntusu halı aşkarlanarsa, məsələ müvafiq hüquq-mühafizə orqanlarına ötürülə bilər. Hər bir işçi Etik Davranış Qaydalarına əməl etməyə borcludur və məsuliyyətin fərdi xarakter daşıdığını anlamalıdır.

9. Qaydalara dəyişikliyin edilməsi proseduru

Hazırki Qaydalar, zəruri hesab olunduğu təqdirdə, vaxtaşırı olaraq yenilənə bilər. Təşkilatın nizamnaməsinə uyğun olaraq, qaydalara dəyişiklikləri təsdiq etmək Təşkilatın Ümumi Yığıncağının səlahiyyətindədir.